# Suvarmaya qayğı bolluğa təminatdır



*Ölkəmizdə torpaqlarda meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi son on illiklərdə daha da yaxşılaşdırılmış və bu hesaba əkinçilikdə bolluq yaradılması üçün etibarlı bünövrə qoyulmuşdur. Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin yüksək təşkilatçılığı, işgüzarlığı və bütün bunlar üçün dövlət tərəfindən göstərilən diqqət və qayğı sahəsində son on illiklərdə aqrar sahədə bol məhsul istehsalı təmin olunur. Çünki torpaqların suvarılması, əkin sahələrinin, yaşayış məntəqələrinin sel sularından qorunması məsələləri öz uğurlu həllini tapmışdır.* ***Zaqatala Suvarma Sistemləri İdarəsinin rəisi Fikrət Şərifov*** *rayonlarında bu istiqamətdə görülən işlərdən söhbət açaraq aşağıdakıları demişdir:*

—Rayonumuzda 15562 hektar suvarılan torpaq sahəsi mövcuddur. Həmin torpaq sahələri 4 sistem üzrə suvarılır. Muxax çay üzrə 3550, Tala çay üzrə 1407, Katex çay vasitəsilə 767 və Qara çay üzrə 9838 hektar torpaq sahələrində suvarma aparılır. Suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, su ehtiyatlarından qənaətlə və səmərəli istifadə edilməsi üçün 563,2 kilometr uzunluğunda suvarma şəbəkəsi, onların üzərində 34 ədəd hidrotexniki qurğu mövcuddur. Suvarma kanalları əsasən torpaq məcralıdır. Yalnız 18 kilometr 669 metri beton üzlüklüdür.

Su mənbələri yağış və qar suları ilə qidalanan Muxax, Katex, Tala çayları və meşələrdən çıxan qaynama bulaqlar, qara sulardır. Onların hamısı qeyri-mühəndisi tipli su mənbələridir. Bundan başqa, Alazan çayı boyunca yerləşən Muğanlı, Qandax, Faldar, Yengiyan, Kəpənəkçi, Mosul kəndlərinin 2101 hektar suvarılan torpaq sahəsinə xidmət edən 2 pilləli Alazan nasos stansiyası mövcuddur. Həmin nasos stansiyası 1982-ci ildə istifadəyə verilib. Nasos stansiyası 14 il fəaliyyət göstərdikdən sonra istismarı dayandırılmışdır. Son illərdə nasos stansiyası təmir edilib bərpa olundu. 2020-ci ilin mart-aprel aylarında Mosul, Kəpənəkçi, Yengiyan, Qandax, Faldar, Muğanlı kəndlərinin şəbəkə altında olan sahələrinə suyun verilməsi təmin edilib. Gələcəkdə tələbat olarsa, yenə suyun verilməsi təmin ediləcək. Alazan nasos stansiyasında fasiləsiz iş təşkil edilib. Mosul, Kəpənəkçi, Faldar, Qandax kəndlərində tütün, qarğıdalı, fındıq, Mosul kəndində tut tingliyin suvarılması aparılır. Həmin nasos stansiyası vasitəsilə suvarılan sahələrdə su pulu yığılması vəziyyəti normaldır.

Rayonumuzun ərazisində suvarmanın daha mütəşəkkil təşkili ilə əlaqədar 3 Sudan İstifadə Birliyi yaradılmışdır. Onların fəaliyyətinin yaxşılaşdırılması üçün Qımır və Əliabad Sudan İstifadə Birliyinə inzibati bina, hərəsinə bir ədəd ekskavator ayrılmışdır və əlavə olaraq cari ildə kompüterlə də təmin olunmuşlar.

Cari ilin əvvəlində suvarma mövsümü başlayanadək əkin sahələrinin suvarılması üçün veriləcək suyun miqdarı barədə SSİ-si ilə SİB arasında müqavilə bağlanmışdır.

Bu il iyunun 8-dək 3 min hektar taxıl, 2310 hektar dən üçün qarğıdalı, 997 hektar tütün, 3116 hektar tərəvəz, 3380 hektar yem bitkiləri, 1820 hektar bağ, 2102 hektar həyətyanı sahələr suvarılmışdır. Cari ildə idarəmiz tərəfindən 184 min kubmetr həcmində suvarma kanalları lildən təmizlənmişdir. 2020-ci ilin istismar tədbirlər planına uyğun olaraq rayonun ərazisindən axan çaylardan əkin sahələrinin və yaşayış məntəqələrinin sel təhlükəsindən qorunması üçün xeyli mühafizə bəndləri təmir edilmişdir. Muxax çayın sağ və sol sahilində Yuxarı Çardaxlar kəndi ərazisində 600 kubmetr təmir işi görülmüşdür. Muxax çayın sol sahilində Sivagil kəndi ərazisində 100 ədəd qabion bənd qurulmuşdur. Rayonun bütün çaylarında sel-sularından mühafizə məqsədi ilə 428 min kubmetr həcmində çay yataqlarının təmizlənməsi işi görülmüşdür. Zaqatala şəhər və Silban kəndlərinin və eləcə də Muxax çayın sol sahilində Gözbarax kəndinin əkin sahələrini mühafizə etmək məqsədilə dövlət vəsaiti hesabına Silban çayda 200 və Muxax çayda 100 metr uzunluğunda mühafizə bəndləri tikilmişdir. Rayonun digər ərazilərində də mühafizə məqsədilə bənd tikintisi ilə əlaqədar yuxarı orqanlar qarşısında məsələ qaldırılmışdır.

2020-ci ildə rayon ərazisində su təsnifatının yaxşılaşdırılması məqsədilə su itkisinin qarşısını almaq üçün 2,5 kilometr uzunluğunda suvarma kanalının beton üzlüyə alınması işi nəzərdə tutulmuşdur. Hazırda tikinti üçün hazırlıq işləri aparılır. Eyni zamanda ayrı-ayrı kəndlərdə su təminatının yaxşılaşdırılması məqsədilə 18 ədəd subartezian quyusunun qazılması planlaşdırılmışdır.

Biz rayonumuzun ərazisində meliorasiya və irriqasiya tədbirlərinin layiqincə yerinə yetirilməsi sahəsində qarşıya qoyulan vəzifələrin öhdəsindən bundan sonra da layiqincə gələcəyik.

**Söhbəti qələmə aldı:**
**Rasim AMANOV,**
**"Respublika".**